**Şəffaflığın təminatına xidmət edən islahatlar**

Ölkədə dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi əsas prinsiplərdən sayılır. Şəffaflığın artırılması və açıq hökumətin təşviqi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübə mübadiləsi məqsədilə ölkəmiz 2011-ci ildə Açıq Hökumət Tərəfdaşlığına qoşulmuşdur. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın və açıq hökumət prinsiplərinin tətbiqi məqsədilə informasiya azadlığının, elektron xidmətlərin, «bir pəncərə» prinsipinin tətbiqi, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın genişləndirilməsi sahəsində ciddi işlər görülmüşdür.

Ölkə rəhbərinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edlimiş «Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» şəffaflığın artırılması və açıq hökumətin təşviqi sahəsində əlavə tədbirlərin görülməsini təmin edəcəkdir. Ekspertlərin fikrincə, Fəaliyyət Planının informasiya əldə edilməsinin asanlaşdırılmasında, dövlət orqanlarının öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsinin təmin edilməsində, dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsində, elektron xidmətlərin təkmilləşdirilməsi və digər xidmətlərin həyata keçirilməsində mühüm rolu olacaqdır. Milli Fəaliyyət Planına əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanları informasiya əldə edilməsinin asanlaşdırılması üçün 2012-2014-cü illərdə dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxsləri müəyyənləşdirməli, informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarını qəbul etməli və bu barədə ictimaiyyəti məlumatlandırmalıdırlar.

Şəffaflığın təminatında dövlət orqanlarının fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verilməsi məsələsi də Fəaliyyət Planının başlıca hədəflərindəndir. Sənəddə dövlət orqanlarının fəaliyyəti barədə məlumatların mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirilməsi, dövlət orqanlarının fəaliyyəti barədə illik məruzələr tərtib edilməsi və internet səhifələrində açıqlanması məsələsi də yer almışdır.

Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi, dövlət orqanları tərəfindən ictimai əhəmiyyətə malik qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlbi, ictimai dinləmələrin keçirilməsi, ictimai maraq kəsb edən qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi kimi internet səhifələrindən istifadə, dövlət orqanları tərəfindən «Açıq qapı» vətəndaş forumlarının keçirilməsi məsələləri də Fəaliyyət Planında öz əksini tapmışdır.

Fəaliyyət Planında, həmçinin, elektron xidmətlərin təkmilləşdirilməsi bəndi də yer almışdır. Həmin bəndə görə, elektron xidmətlər göstərilməsi üzrə qiymətləndirmə həyata keçirilərək ictimaiyyətə açıqlanmalı, dövlət orqanları səlahiyyətlərinə uyğun olaraq həyata keçirdikləri elektron xidmətlər barədə ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirməli, dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmini məqsədi ilə vahid sistem yaradılmalıdır. Paralel olaraq rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsi təkmilləşdirilməli, regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlər həyata keçirilməlidir.

Fəaliyyət Planında maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması məsələsinə də toxunulmuşdur. Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə və Vergilər nazirliklərinə dövlət maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi, maliyyə nəzarəti üzrə daha təkmil hüquqi bazanı təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanması, maliyyə nəzarəti orqanlarının hesabatlılığının artırılması və həmin orqanlar tərəfindən maliyyə nəzarətinin nəticələri barədə təhlillərin və statistik məlumatların ictimaiyyətə təqdim edilməsi, maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət sisteminin yaradılması, maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsi, onlar arasında vahid elektron informasiya bazasının yaradılması və informasiya mübadiləsinin təşkili həvalə edilmişdir.

Eyni zamanda, vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması məqsədilə Vergilər Nazirliyinə vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsi və vergi ödəyiciləri ilə təbliğat işinin təkmilləşdirilməsi, vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksinə uyğunlaşdırılması sahəsində tədbirlərin görülməsi, vergilərin və

digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi tapşırılmışdır.

Aytən NƏBİYEVA